# DÖVLƏT MÜƏSSİSƏLƏRİ VƏ YAXŞI İDARƏETMƏ

## Hava nəqliyyatı sektorunda fəaliyyət göstərən dövlət müəssisələri:AZAL

**Təqdim edir:**

**Abil Bayramov**

# Araşdırılan məsələlər

- Bu araşdırmada hava nəqliyyatı sektorunda mövcud vəziyyət, hava nəqliyyatında həm dövlət, həm də özəl sektorun iştirak səviyyəsi, Azərbaycan Hava Yolları QSC-nin ölkə iqtisadiyyatında rolu və sektorda bərabər imkanların təmin edilməsinə təsirləri təhlil olunur, hava nəqliyyatı sektorunun və Azərbaycan Hava Yolları QSC-nin fəaliyyətinin səmərəliliyinin artırılması yolları ilə bağlı tövsiyələr verilir.

# Hava nəqliyyatı sektorunun ölkə iqtisadiyyatında rolu

- Aviadaşımaların üstünlüyü:
- minimum tranzit nöqtəsi ilə hərəkət etmə və nəticədə səyahət vaxtının azalması;
- tez xarab olan məhsulların və yüksək dəyərli malların daşınması.

- Hava nəqliyyatı ilə yük daşınması yükdaşımaların ümumi həcminin (dünya üzrə) yalnız 0,5%-i təşkil etsə də, dəyər baxımından hava yükləri ümumi ticarət həcminin 35%-i təşkil edir.

# Nəqliyyat sektorunda daşınmalardan əldə olunan gəlir, min manat1

| | 2016 | 2017 | 2018 |
|---|---|---|---|
| Cəmi | 4 780 684 | 5 628 015 | 6 231 943 |
| Dəmir yolu | 262 435 | 279 202 | 270 841 |
| Dəniz | 160 096 | 179 725 | 170 567 |
| Hava | 1 053 949 | 1 647 341 | 2 066 918 |
| Boru kəməri | 2 047 004 | 2 203 546 | 2 272 532 |
| neft kəməri | 1 515 830 | 1 599 097 | 1 539 697 |
| qaz kəməri | 531 174 | 604 449 | 732 835 |
| Avtomobil | 1 214 938 | 1 273 879 | 1 396 899 |
| Tramvay | - | - | - |
| Trolleybus | - | - | - |
| Metro | 42 262 | 44 322 | 54 186 |

# Nəqliyyat sektorunda yük daşınmasından əldə olunan gəlir, min manat

| | 2016 | 2017 | 2018 |
|---|---|---|---|
| Cəmi | 3 775 392 | 4 452 895 | 4 871 247 |
| Dəmir yolu | 249 277 | 264 962 | 256 167 |
| Dəniz | 159 398 | 178 793 | 168 952 |
| Hava | 717 528 | 1 185 343 | 1 538 459 |
| Boru kəməri | 2 047 004 | 2 203 546 | 2 272 532 |
| neft kəməri | 1 515 830 | 1 599 097 | 1 539 697 |
| qaz kəməri | 531 174 | 604 449 | 732 835 |
| Avtomobil | 602 185 | 620 251 | 635 137 |

# Nəqliyyat sektorunda sərnişin daşınmasından əldə olunan gəlir, min manat

| | 2016 | 2017 | 2018 |
|---|---|---|---|
| Cəmi | 1 005 292,0 | 1 175 120,0 | 1 360 696 |
| Dəmir yolu | 13 158,0 | 14 240,0 | 14 674,0 |
| Dəniz | 698,0 | 932,0 | 1 615,0 |
| Hava | 336 421,0 | 461 998,0 | 528 459,0 |
| Avtomobil | 612 753,0 | 653 628,0 | 761 762 |
| Avtobus | 458 130,0 | 487 691,0 | 578 402 |
| Taksi | 154 623,0 | 165 937,0 | 183 360 |
| Tramvay | - | - | - |
| Trolleybus | - | - | - |
| Metro | 42 262,0 | 44 322,0 | 54 186,0 |

# Nəqliyyat sektorunda yük və sərnişin daşınmasına çəkilmiş xərclər, min manat

| | 2016 | 2017 | 2018 |
|---|---|---|---|
| Cəmi | 2 583 043 | 3 407 283 | 3 902 532 |
| Dəmir yolu | 327 401 | 460 350 | 323 427 |
| Dəniz | 173 960 | 162 394 | 174 677 |
| Hava | 975 035 | 1 626 498 | 2 187 832 |
| Boru kəməri | 390 673 | 418 547 | 393 426 |
| Avtomobil | 557 946 | 634 494 | 714 170 |
| Tramvay | - | - | - |
| Trolleybus | - | - | - |
| Metro | 158 028 | 105 000 | 109 000 |

# Fəaliyyətin səmərəliliyi

Hava nəqliyyatı sektorunda səmərəlilik əhalinin və milli iqtisadiyyatın hava nəqliyyatı və digər aviasiya xidmətlərinə olan ehtiyaclarının minimum xərclə tam və vaxtında ödənilməsi ilə əlaqəli münasibətləri əks etdirir. Ümumdünya İqtisadi Forumunun 2019-cu il üçün "Qlobal rəqabət qabiliyyəti üzrə hesabat"ına əsasən, səmərəlilik indeksi hava nəqliyyatı xidmətlərinin çevikliyini, dəqiqliyini, sürətini və dəyərini qiymətləndirir.

# Fəaliyyətin səmərəliliyi

2019-cu ilin yanvar-iyun aylarında xarici ölkələrə səfər etmiş Azərbaycan vətəndaşlarının 83,4 faizi dəmir yolu və avtomobil, 15,8 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib. Halbuki mənzil başına rahat və tez çatmaq üçün hava nəqliyyatı daha sərfəlidir. Amma "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) istənilən istiqamətə bilet qiymətləri başqa ölkələrlə müqayisədə, təqribən iki dəfə baha olması insanların bu nəqliyyat vasitəsindən istifadə etməsinə imkan vermir.

Bu isə xaricə getmək istəyən insanların əksəriyyətinin Gürcüstan üzərindən uçmağa üstünlük verməsinə səbəb olur. Hətta Türkiyə və Avropaya belə, Gürcüstan aviaşirkətləri ilə gedənlərin sayı artır

# Dövlət zəmanəti ilə alınan borclar

Hesablama Palatasının Rəyinə görə, dövlət zəmanəti ilə alınan borcların Təminat Fondundan ödənilmiş vəsaitin qaytarılması nəzərdə tutulan (əsas borc) məbləği ümumilikdə 2018-ci il üzrə 295,5 mln. manat, 2019-cu il üzrə 388,6 mln. manat təşkil edir ki, bu borcların əsas hissəsi "Azərbaycan Hava Yolları" QSC, Dövlət Neft Şirkəti, "Azərkosmos" ASC, "Azərenerji" ASC, "Azəralüminium" ASC və "Azərbaycan Dəmir Yolları" QSC üzrədir

# Dövlət zəmanəti ilə alınan borclar

- Hesablama Palatası tərəfindən aparılmış nəzarət tədbiri nəticəsində müəyyən edilmişdir ki, dövlət zəmanəti ilə alınan borcların Təminat Fondunun vəsaitləri hesabına yerinə yetirilmiş öhdəliklər üzrə ödənilmiş məbləğlərin Fonda bərpa edilməsi üzrə Maliyyə Nazirliyi ilə əsas borcalanlar arasında bağlanmış müqavilələr üzrə ödəniş qrafiklərinə əsasən vaxtı çatmış, lakin ödənilməmiş məbləğlər 01.01.2018-ci il tarixə qüvvədə olan 19 müqavilə üzrə 27686,6 min ABŞ dolları, 157,5 min Avro və 159310,4 min manat, 01.07.2018-ci il tarixə qüvvədə olan 30 müqavilə üzrə 46338,5 min ABŞ dolları, 5188,2 min Avro və 261046,8 min manat təşkil etmişdir.

# Dövlət büdcəsindən ayırmalar

- "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının Rəyindən görünür ki, inzibati təsnifat üzrə dövlət büdcəsinin xərcləri üzrə 10010,0 min manat (həmin təsnifat üzrə dövlət büdcəsi xərclərinin 5,7%-i) “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti üçün nəzərdə tutulmuşdur.
- "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının Rəyindən görünür ki, 2020-ci il dövlət büdcəsinin layihəsində funksional təsnifatın “İqtisadi fəaliyyət” bölməsi üzrə nəzərdə tutulmuş subsidiyaların təşkilatlar üzrə bölgüsündə “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin payı 10 milyon manat təşkil edir.

# Sektorda əsas oyunçular

AZAL beynəlxalq aviadaşıyıcı kimi 1991-ci ildə yaradılmışdır. Bu dövrə qədər “AZAL” Aeroflotun (Sovet İttifaqı) ildə 1.5 milyon sərnişin daşıyan daha səmərəli sahələrindən biri idi. Əsas vəzifəsi - təhlükəsiz və müntəzəm uçuşların təmin edilməsi, hava xidmətlərində beynəlxalq və daxili bazarların tələblərinin yerinə yetirilməsidir. “Azərbaycan Hava Yolları” İCAO-da AZALAVİA kimi qeydiyyatdan keçmişdir və üçtərəfli AHY kodu ilə, eləcədə də İATA-da ikihərifli J2 və 771 kodu ilə kodlaşdırılmışdır.

# Təsis olunmasında AZAL-ın iştirak etdiyi müəssilər

- “Ground Handling Company” Birgə Müəssisəsi (GHJ BM)
- «Azəraeronaviqasiya» müəssisəsi
- «AZALOİL» müəssisəsi
- «AZAL» Aviasiya-Texniki Mərkəzi
- Yük Aviasiya Şirkəti (YAŞ)

## Sektorda əsas oyunçular

2019-cu ilin birinci yarısında Bakının hava limanının beynəlxalq uçuşlarda sərnişinlərinin sayı 1,76 mln. təşkil etmişdir ki, bunun da 32,8%-i AZAL-ın, 13,2% "Buta Airways"in payına düşüb. Göstərilən dövrdə xarici aviaşirkətlərin payı 54% təşkil edib. Hazırda 31 sərnişin aviaşirkəti Heydər Əliyev Beynəlxalq Aeroportuna birbaşa aviareys yerinə yetirir.

# Sektorda əsas oyunçular

- AZAL-ın məlumatyına görə, son bir ildə hava limanında Etihad Airways, IranAir, Kuwait Airways, GulfAir, Flynas, Arkia, Pegasus Airlines, SmartAvia, UrAirlines, Nordwind kimi bir çox yeni aviaşirkət fəaliyyətə başlamışdır. Heydər Əliyev Beynəlxalq Aeroportuna 34 aviaşirkət 60 istiqamətdə uçuşlar həyata keçirir, yay uçuş dövründə isə 75 istiqamət üzrə reyslər yerinə yetirilib. 34 aviaşirkət sırasında 9 aviaşirkət – "Buta Airways", "WizzAir" (Budapeşt), "AirBaltic" (Riqa), "Pegasus" (İzmir), "Flynas" (Ər-Riyad), "FlyDubai" (Dubay), "AirArabia" (Şərcə), "Jazeera Airways" (Küveyt) və "Smartavia" (Sankt-Peterburq) aşağı qiymətlə uçuşlar təklif edən aviadaşıyıcılardır.

# Sektorda əsas oyunçular

Azərbaycan mülki aviasiyasının tarixində ilk dəfə beşinci və yeddinci qrup "hava azadlığı" ölkənin bütün beynəlxalq hava limanlarında heç bir maneə olmadan tətbiq olunacaq. 1 yanvar 2020-ci il tarixindən etibarən sözügedən "hava azadlığı" qrupları Azərbaycanın hava limanlarından Avropa, Şimali Amerika, Avstraliya və Cənub-Şərqi Asiyanın 40 ölkəsinə uçuşlar həyata keçirməyə imkan verəcək. "Hava azadlığı" qrupu hər hansı bir ölkəyə məxsus aviaşirkətin təyyarələrinin digər dövlətin hava məkanında fəaliyyətini tənzimləyən qaydalar toplusudur. Azadlıq dərəcəsi nə qədər yüksək olarsa, xarici aviaşirkətə məxsus təyyarənin də Azərbaycanın hava məkanında daha çox hərəkət etməsinə icazə verilir.

Əvvəllər Azərbaycana belə uçuşlar həyata keçirmək üçün icazə aviaşirkətlərə fərdi olaraq təqdim edilirdi.

## Şəffaflıq və hesabatlılıq

“Mühasibat uçotu haqqında” qanunun və Nazirlər Kabinetinin 27 may 2010-cu il tarixli 97 saylı və 1 oktyabr 2014-cü il tarixli 321 saylı qərarlarına əsasən AZAL həm ictimai əhəmiyyətli, həm də dövlət zənaməti ilə kredit alan qurum kimi növbəti ilin aprel ayının sonunadək audit hesabatı ilə birlikdə öz internet səhifəsində dərc etməlidir. Ancaq qurum hələ də hesabatlarını ictimaiyyətə açıqlamır.

# Sektorun səmərəliliyinin artırılması yolları

- Hava nəqliyyatında həm dövlət, həm də özəl sektorun iştirakı üçün bərabər imkanların tanınması.
- Heydər Əliyev Beynəlxalq Aeroportunun özəl idarəçiliyə verilməsi.
- Heydər Əliyev Hava Limanının hökumətin nəzarətində qalmaqda davam edəcəyi halda həm Heydər Əliyev Hava Limanında, həm də bölgələrdəki hava limanlarında məhsuldarlıq və xidmət səviyyəsinin artırılması məqsədilə cari effektivlik və hədəf göstəricilərinə münasibətdə boşluqların təhlili və tələb oluna biləcək yardım səviyyəsinin müəyyənləşdirilməsi.
- Hava nəqliyyatı sahəsində dövlət-özəl əməkdaşlığının təşviqi.

# AZAL-ın fəaliyyətində səmərəliliyinin artırılması yolları

- “Azərbaycan Hava Yolları” QSC-nin fəaliyyətində şəffaflıq və hesabatlılığın təmin edilməsi.
- “Azərbaycan Hava Yolları” QSC-nin fəaliyyətində korporativ idarəetmənin tətbiq edilməsi.
- Xidmət standartları üzrə siyasətin işlənib hazırlanması.

DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK!